TIN/VÖEN 1700230312
Audit license/İcazə № SA/309
Dated/Tarixi: 07.01.2026

## AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

### MÜSTƏQİL AUDITORLARIN HESABATI

**Auditor rəyi № 8DcHWJTIUI**

**“Meqa Sığorta” ASC-nin Səhmdarlarına**

**Rəy**

Biz, “Meqa Sığorta” ASC-nin (“Cəmiyyət”) 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, eləcə də əsas mühasibat prinsiplərinin icmalı da daxil olmaqla maliyyə hesabatlarına izahedici qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsas**

Biz, auditi Beynəlxalq Audit Standartlarının (“BAS”) əsasında aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan öhdəliklərimiz hesabatımızın “Maliyyə hesabatlarının auditinə görə auditorların məsuliyyəti” bölməsində əks olunmuşdur. Biz ictimai əhəmiyyətli qurumların maliyyə hesabatlarının auditinə aid olan etik normalar və maliyyə hesabatlarının auditinə tətbiq edilən Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının “Peşəkar mühasiblər üçün beynəlxalq etika məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)” (IESBA Məcəlləsi) prinsiplərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik.

Biz həmçinin digər etik öhdəliklərimizi bu tələblərə və IESBA Məcəlləsinə uyğun yerinə yetirmişik. Biz ictimai əhəmiyyətli qurumların maliyyə hesabatlarının auditinə şamil olunan müstəqillik tələblərini tətbiq etmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiqdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair auditor rəyinin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Rəhbərliyin və maliyyə hesabatlarının idarə edilməsi üzrə məsul şəxslərin öhdəlikləri**

Rəhbərlik bu maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanmasına və obyektiv şəkildə təqdim edilməsinə, eləcə də hesabatların saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərliyin Cəmiyyəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa real alternativin olmadığı hallar istisna olmaqla, rəhbərlik

Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda Cəmiyyətin fəaliyyətinin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına və maliyyə hesabatlarında fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə olunmasına görə məsuliyyət daşıyır. Cəmiyyətdə idarəetməyə məsul şəxslər maliyyə hesabatlarının hazırlanması və təqdimatı prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorların məsuliyyəti**

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında saxtakarlıq və ya səhvlərdən dolayı əhəmiyyətli təhriflərin mövcud olmadığına əmin olmaq və rəyimizi əks etdirən auditor hesabatını təqdim etməkdir. Təminat olduqca önəmli olsa da, BAS-lara uyğun aparılmış auditin hər zaman mövcud olan təhrifləri aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıqdan və ya səhvlərdən irəli gələ bilər və bu maliyyə hesabatları əsasında verilmiş iqtisadi qərarlara ciddi təsir göstərə bilər. BAS əsasında aparılan auditin bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik.

Biz həmçinin:

- maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrifləri aşkarlayır, təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır, icra edir və rəyimiz üçün müvafiq əsası təşkil edəcək yetərli və müvafiq sübutlar toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir. Belə ki saxtakarlıq əlbir olma, saxtalaşdırma, məqsədli səhv buraxma və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqədar olur;
- mövcud şərtlərdə müvafiq olacaq, lakin Cəmiyyətin daxili nəzarətinin səmərəliliyi ilə bağlı rəy bildirmək məqsədi daşımayan audit prosedurları hazırlamaq üçün audit zamanı Cəmiyyətin müvafiq daxili nəzarət sistemi haqqında anlayış əldə edirik;
- istifadə olunan uçot siyasətlərinin, uçot prinsiplərinin və rəhbərlik tərəfindən açıqlanan əlaqədar məlumatların müvafiqliyini təhlil edirik;
- rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin müvafiqliyinə və Cəmiyyətin fəaliyyətinin fasiləsizliyi prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub-olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Bizim yekun rəyimizdə "maliyyə hesabatlarında ciddi qeyri-müəyyənlik mövcuddur" qeyd olunarsa, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqədar məlumatlara diqqət çəkməyimiz, yaxud da bu cür məlumatlar müvafiq olmazsa, rəyimizi dəyişdirməyimiz tələb olunur. Bizim yekun rəyimiz auditor hesabatının hazırlanma tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Bununla belə, gələcəkdə baş verə biləcək hadisələr və ya şərtlərin dəyişməsi Cəmiyyətin işində fəaliyyətin fasiləsizliyi prinsipini poza bilər;
- maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin maliyyə hesabatlarının obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqdləri və hadisələri əks etdirib-etdirmədiyini təhlil edirik.

Biz auditin və mühüm audit tapıntılarının, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar edilmiş mühüm çatışmazlıqların nəzərdə tutulan əhatə dairəsi və zamanlaması ilə bağlı Cəmiyyətin rəhbərliyi ilə əlaqə saxlayır, müstəqilliyə dair müvafiq etik tələblərə əməl etməyimizi bəyan edirik.

Rəhbərliklə müzakirə edilmiş məsələlərdən əsas audit məsələlərini, cari ilin maliyyə hesabatlarının auditində ən vacib olan məsələləri müəyyənləşdiririk. Belə halları, məsələ ilə əlaqədar qanun və qaydalar məsələni ictimaiyyətə açıqlamaya mane olmadığı təqdirdə auditor hesabatında göstəririk və ya nadir hallarda, məsələnin açıqlanmasının ictimai maraqlara mənfi təsirinin ola biləcəyini müəyyənləşdirdikdə, belə məsələlər auditor hesabatında təsvir olunmamalıdır.

Sərbəst auditor İlham Süleyman oğlu Süleyman

Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 07.01.2026-cı il tarixli SA/309 saylı İcazə

Ünvan: AZ1004, Bakı şəhəri, Səbail rayonu, Badamdar şossesi, 2-ci Y/M, ev 112, m.17 Tel.: (+994 50) 201 66 10

"Tax Audit" MMC-nin direktoru-auditoru R.O.Balakişiyev

Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 22.01.2022-ci il tarixli AT/243 saylı İcazə

Ünvan: AZ1041, Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, ev 4. Telefon: (+994 51) 207-10-81

Bakı şəhəri, 3 mart 2026-cı il